# Xalq iradəsini ortaya qoydu

## Bəzi beynəlxalq təşkilatların ölkəmizə qarşı qərəzli münasibətləri Azərbaycanın siyasi, iqtisadi, demokratik inkişafına qısqanclıqdan irəli gəlir



Parlament seçkiləri mütəşəkkilliklə başa çatdı. Xarici müşahidəçilər keçirdikləri mətbuat konfranslarında seçici fəallığını, tətbiq olunan seçki texnologiyalarını yüksək dəyərləndirdilər. Seçkilərin demokratik, beynəlxalq standartlara uyğun keçirildiyini KİV-lərə verdikləri müsahibələrində də bildirdilər. Yəni beynəlxalq səviyyədə dəstəklənən parlament seçkilərini AXCP, səsvermə prosesinə dörd gün qalmış seçkilərdə iştirakdan imtina edən Müsavat, bir də ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu ( DTİHB) bəyənmədi. AXCP ilə Müsavatın mövqeyi başadüşüləndir. Sosial bazaları çoxdan tükənən, partiyadaxili problemlərin həllində çətinlik çəkən AXCP ilə Müsavat məğlub olacaqlarını hiss etdikləri üçün seçkilərə qatılmadılar. Bu partiyalardan informasiya mənbəyi və Azərbaycana qarşı təxribatlarda vasitə kimi istifadə edən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu yenə də muzdlu nökərlərinin yanında olmaqla ölkəmizin inkişafda olan demokratiyasına qara yaxmağa başladı.

DTİHB Azərbaycandakı seçkilərə qərəzli münasibəti çoxluqla müqayisədə azlıq təşkil etsə də çox təəssüf doğurdu. Ötən seçkilərdə də qeyri-obyektiv, həqiqəti əks etdirməyən bəyanatları ilə ermənipərəst dairələrin maraqlarına xidmət etdiyini sərgiləyən qurum 1 noyabr parlament seçkilərində iştirakdan boyun qaçırmaq üçün bəhanə də tapdı. Beynəlxalq müşahidəçilər etiraf edirlər ki, DTİHB maraqlarına cavab verməyən, yəni idarə edilməsi mümkün olmayan, güclü dövlətlər barədə əvvəlcədən şablon hesabat hazırlayır və hər dəfə seçkilərə qiymət verərkən sadəcə rəqəmləri dəyişdirir. Bu dəfə isə çeynənmiş "praktikanın" özünü doğrultmadığını hiss edərək məkrli münasibətini bildirmək üçün bu qurum daha məkrli siyasətə əl atdı.

Xarici İşlər Nazirliyinin açıqlamasında qeyd olunur ki, 1 noyabrda keçirilən parlament seçkilərində iştirakdan ermənipərəst dairələrin maraqlarına uyğun imtina edən DTİHB-nin əsassız bəhanəsi guya qurumun müşahidəçilərinin sayına məhdudiyyət qoyulması olub. Əslində isə səbəb başqadır. Seçkilərdən əvvəl ATƏT/DTİHB-nin Ehtiyacların Qiymətləndirilməsi Missiyasının (EQM) Azərbaycana səfərinin yekunlarına dair qiymətləndirmə hesabatını "imtina prosesinin" başlanğıcı adlandırmaq olar. Hesabata görə, EQM əsas ekspert heyətinə əlavə olaraq seçkilərə iştirakçı dövlətlərdən 30 uzunmüddətli və 350 qısamüddətli müşahidəçinin ezam olunmasını tövsiyə edib. Qurumun belə "qiymətləndirmə meyarı" əhalisi Azərbaycandan qat-qat artıq olan başqa ölkələrlə müqayisədə inandırıcı deyil. Göründüyü kimi, Azərbaycanda əhalinin sayı, müşahidəçi ilə seçki məntəqələri arasında nisbətin meyarlara uyğun gəlməməsi ilk baxışdan diqqəti cəlb edir. DTİHB-nin Azərbaycanın bu məsələ ilə bağlı tövsiyələrinə zidd addım ataraq birtərəfli qaydada müşahidəçilikdən imtina etməsi bir daha qurumun kimlərinsə maraqlarına xidmət etdiyini göstərir.

Hesabata münasibətini bildirən Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qeyd edib ki, Azərbaycan hökuməti müşahidə üçün ATƏT/DTİHB-yə müraciət ünvanlamış və dəfələrlə missiyanın fəaliyyəti ilə bağlı müzakirələr aparmağa açıq olduğunu bildirmişdir. Təəssüf ki, ATƏT/DTİHB bu təşəbbüsü layiqincə qiymətləndirməmiş və birtərəfli qaydada Azərbaycana missiya göndərməkdən imtina etmişdir". Əli Həsənov ABŞ Dövlət Departamentinin açıqlamasına da münasibətini bildirərək vurğulayıb ki, seçkilərin nəticələrində Azərbaycan xalqının iradəsi əksini tapıb: "Bütün bunları nəzərə alaraq, birmənalı şəkildə demək olar ki, Milli Məclisə seçkilərin ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu tərəfindən müşahidə edilməməsi seçkilərin legitimliyinə kölgə sala bilməz."

Onu da nəzərə almaq lazımdır ki, Azərbaycanda keçirilən seçkilərlə bağlı əsası olmayan rəylər fomalaşdırmağa çalışan ATƏT-in müşahidəçiləri ABŞ-da heç seçki məntəqələrinə buraxılmırlar. İndi ABŞ Dövlət Departamentinin istinad etdiyi ATƏT-in müşahidəçilərinə bu ölkədə hətta bəzi qadağalar da tətbiq olunub. 2012-ci ildə ABŞ-ın Texas ştatının prokuroru ATƏT müşahidəçilərinə seçki məntəqələrinə 30 metr qalmış irəli gəlməyi qadağan etmiş, qanuna tabe olmayanların cəzalandırılacağını bildirmişdi. Birləşmiş Ştatların Ayova, Arizona və Missisipi ştatlarında "atətçilərin" görünməsinə belə qadağa qoyulmuşdu. Göründüyü kimi ATƏT-in seçkiləri "qiymətləndirmə siyasəti" dövlətlərə münasibəti ilə tarazlanır. Bəzi hallarda siyasi təzyiq vasitəsinə çevrilərək "demokratiya dəyənəyi" rolunu oynayır.

Qərəzli təşkilatların "demokratiya dəyərləndirmələrinə" başqa misal. Ermənistanda prezident seçkilərinin tam saxtalaşdırılmasına- namizədlərdən birinin güllə yarası almasına, digərinin fiziki təzyiqə məruz qalmasına, başqasının aclıq elan etməsinə göz yumaraq müsbət qiymət verən Qərb, Avropa təşkilatlarının Azərbaycanda dinc və şəffaf şəraitdə keçən demokratik seçkilərə qeyri-obyektiv münasibəti ikili standartların bariz nümunəsindən başqa bir şey deyildir. Azərbaycan region və dünya ölkələri ilə qarşılıqlı əməkdaşlıqda, strateji tərəfdaşlıqda maraqlı olan, iqtisadi inkişafı, siyasi sabitliyi, demokratik dəyərlərə sadiqliyi ilə fərqlənən qüdrətli, güclü, rəqabətqabiliyyətli dövlətlər sırasında yer alan ölkədir. Bütün siyasi kampaniyalarda ölkədə təkmilləşən, formalaşan seçki posesinin hər bir mərhələsində obyektivliyin, şəffaflığın təminatını demokratiyanın tələblərinə sadiqlik kimi dəyərləndirən beynəlxalq müşahidəçilər Azərbaycanda tətbiq edilən ən müasir metodları digər ölkələr üçün nümunə göstərirlər. Respublikamızın qüdrətlənməsini, gündən-günə möhkəmlənən nüfuzunu istəməyən daxili və xarici qüvvələr ölkəmiz haqqında qərəzli, məkrli, heç bir reallığa əsaslanmayan saxta arqumentləri ilə Azərbaycan həqiqətlərinə qara yaxmağa çalışsalar da qalib yenə xalqın ümumi rəyi, milyonların birlik və həmrəyliyi olur. Parlament seçkilərinin xalqın iradəsini əks etdirən nəticələri bu həqiqəti bir daha dünyaya sübut etdi.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***